# Dəri çantadakı pul

**Hədiyyə Şəfaqət**



**(Hekayə)**

**(əvvəli ötən sayımızda)**

***O başdaki səsin sahibi şaqqanaq çəkib güldü, gülüşünün səsi Rafiqin beyninin içindən keçdi, heç xəstə adamın gülüşünə oxşamırdı, ciddiləşdi:***

***-Deməsəniz verəmmərəm, bəlkə heç pulun sahibi sən deyilsən?***

***Gülüşünü yığışdürdı o başdakı adam.***

***Ötkəm bir səslə pulun qədərini, sayını bitdə - bitdə Rafiqin qulağına oxudu:***

***-Düzdür?***

***-Düzdür...***

***-Nə götürüb xərcləmisən, halal xoşun olsun.***

***Yadına arvadının üzündə açılan sillə düşdü:***

***-Heç bir manatına da dəyməmişəm, necə var, durur, qaytaranda sayarsan..***

***Telefondakı adam Rafiqin bozarmağını hiss elədi:***

***-Bağışla sən Allah, indi belə adam hardadır? Sağ ol. Maşın göndərəcəm axşam üstü, gələrsən, qaytararsan, hörmətini edəcəm...***

Rafiq telefonu qulagından ayırıb cibinə qoydu. Pərt olmuşdu, pul sahibinin danışığı xoşuna gəlməmişdi. Sabir kişi qırımından anladı:

-Dünya belədir də, bəs mən nə deyirdim?

Pərtliyini gizlətməyə çalışdı:

-Mənə nə adamın necə olmağından, qaytarım getsin, canım qurtarsın...

-Amma yenə özləri gəlib götürsələr yaxşıydı, sən niyə gedəsən, sonra başına...

- Adam xəstədir. Həm də nə olacaq, tutub döyməyəcəklər ki, o boyda pul qaytaran adamı..

Sabir kişi sözünü ağzından aldı:

-Sən Allah nə qədər pul tapmışdın?

Sahibi tapılmışdı, daha niyə gizlədəcəkdi ki:

-İyirmi min Xəlil kişi bu qədərini gözləmirdi:

-Vay ana! İndi sən bu boyda pulu qaytaracaqsan?

Kişinin üzünə bir qəribə baxdı.

Daha bu sualın yeri deyildi...

Marketdən çıxıb evə qayıtdı, çay dəmlətdi arvadına, oturub iştahla yeməyini yedi, durub yataq otağına keçdi:

- Bu gün işə getməyəcəm, gələrlər evdə olmaram, bir də məni gözləməsinlər...

***

Axşamüstü, elə şərtləşdikləri vaxtda qapı döyüldü. Qadın ərinin üzünə baxdı. Rafiq bu baxışlardan qorxdu, qəribə bir peşmançılıq, qəribə bir qəzəb vardı baxışlarında. Gözünü yayındırdı, bilirdi ki, bir də bu evdə o qədər pul olmayacaq, bir də o qədər pul görməyəcəklər, bir də heç belə itik tapan da deyillər deyillər. Bilirdi ki, arvadı bunu bağışlamayacaq içində, amma ömrü boyu üzünə də gəlməyəcək. Bilirdi ki, hər dəfə qapını ehtiyac döyəndə hər ikisi, hələ bəlkə uşaqlar da bu günü xatırlayacaqlar.. İçindən bir gizilti keçdi, düz hərəkət etdiyinə əmin idi, amma yenə də nəsə qırılmışdı içində. İndi anladı ki, əslində bu günlər uzunu özü də pulun sahibinin tapılmamasını arzulayırmış...

Qapı bir də, bu dəfə daha bərk döyüldü . Rafiq əliylə uşaqlara işarə elədi, “götür uşaqları keç içəri”. Qadın səssizcə yataq otağına girib uşaqları da çağırdı, qapını örtdü. Nə qədər asta örtülsə də Rafiqə elə gəldi ki, arvadı o qapını ərinin üzünə çırpdı...

Astanada iki yekəpər, geyimli-keçimli gənc dayanmışdı. Onlardan biri gorünüşünə yaraşmayan asta nəzakətlə dilləndi:

-Rafiq müəllim sizsiniz?

Rafiq qımışdı:

-Rafiq mənəm, amma müəllimsiz..

-Bizi Akif müəllim göndərdi, sizinlə danışıb, pul üçün...

Rafiq pulun dalısıyca gələn adamların görünüşündən şübhəyə düşdü:

-Akif müəllimə zəng edin, özü desin.

Gənc yenə nəzakətlə gülümsədi, nömrəni yığdı, o tərəfdən səs çıxar-çıxmaz özünü yığışdırdı:

-Akif müəllim, Rafiq müəllim əmin olmaq istəyir ki, bu sizsiniz.

Yenə səhərki gülüşün səsi gəlib Rafiqin qulaqlarına doldu, əti çiyrəndi, artıq bu gülüşün sahibinə nifrət etməyə başlamışdı. Gənc telefonu Rafiqə uzatdı, həmin adam idi:

-Narahat olmayın, bizim uşaqlardır, götürün gəlin.

Rafiq birdəncə düşündü ki, heç getməsin, görməsin, tanımasın bu adamı, pulu eləcə göndərdiyi adamlara versin. Amma tez də fikrindən daşındı, maraq ona güc gəldi.

Masanın üstündən pul çantasını götürdü, gödəkcəsini əlinə aldı. Küçəyə çıxan kimi qarşısında duran maşının qapısı açıldı. Gənclərdən biri eyni nəzakətlə qapını saxlayıb əyləşməyini gözlədi. Rafiq unqundu, təkcə elə bu maşının yarım milyon qiyməti olardı. İçində bir şey qırıldı düşdü, bir anda oğluna hələ də velosiped ala bilmədiyini, uşaq böyüdükcə yaşına uyğun velosipedin də qiymətinin artacağını düşündü.

***

Adamın evi xeyli uzaqdaymış. Şəhər kənarında yenicə peyda olmuş villaların arasıyla bir xeyli getdilər. Rafiq artıq bilirdi ki, hər kimdirsə çox varlı adama ilişib. Ürəyindəki səksəkəni sakitləşdirirdi. Belələrini az görməmiş, qapılarında az şləməmişdi, insaflısı da vardı, qəddarı da, adama nə istəseydilər edərdilər. Amma o nə etmişdi ki? Tapdığı pulu qaytarırdı . Amma niyə bu adamın qapısına gedirdi? Niyə onu bura çağırmışdılar? Bəlkə minnətdarlıq, bəlkə bir-iki manat sədəqə üçün? Yox, o heç bir qəpik də götürən deyil.. Bəlkə götürsün? Velosiped alar oğluna, bu lənətə gəlmiş velosiped gözünün qabağından çəkilmirdi. Ya da heç lazım deyil, özü işləyib alar..

Bəlkə ona tamaşa edəcəklər, “görün indiki zamanada necə axmaqlar var” deyib güləcəklər... Bəli, məhz axmaq, bilirdi ki, yarım milyonluq maşının sahibi ona başqa ad qoymayacaq, daha durub deməyəcək ki, ə, nə halal adamsan sən!

***Maşın dəbdəbəli bir darvazanın qarşısında dayandı. Sürücü harasa nəsə dedi, darvaza tayı avtomatik açıldı. Həyət göründü, maşın içəri girdi. Həyətdə gül-çiçək, yaşıllıq boy-boy uzanırdi, bağçada rəngbərəng çiçəklərin sanki nə payızdan, nə soyuqdan xəbəri var idi. “Pul belə şeydir, qışı da geri göndərir ”- düşündü Rafiq. Maşın dayandı, sürücü düşüb qapını açdı onun üçün. Sonra arxasıyca gəlməsi üçün işarə elədi, həyətin o başındakı nəhəng villaya sarı getdilər. Giriş otağının qapıları öz-özünə açıldı. Rafiq belə evlərdə çox işləmişdi, amma hazırını, yaşananını görməmişdi. Utanırdı, başını aşağı salmışdı, bayaqkı qururundan əsər-əlamət qalmamışdı, gözü ayaqqabılarına sataşdı, çox köhnəlmiş, bozarmış ayaqqabılar yaraşıqlı döşəmənin üstündə çox miskin görünürdü. Gəldiyinə ikinci dəfə peşman oldu.***

Böyük holla ayağını atar-atmaz çox tanış, illərin o üzündə ilişib qalan tanış səs qulaqlarını dəlib keçdi:

-Ay kişi, ay halal kişi, gəl çıx da!

Səsin sahibi qarşısında, bir basımda onu qucaqlayıb bağrına basdı:

-Heç dəyişməmisən deyirəm, balam, hamı dəyişdi ayrı adam oldu, sən elə busan ki, bu da!

Tanıdı. Kənddə qonşuluqda böyümüşdülər, bir sinifdə oxumuşdular, hələ müharibənin qızğın zamanında bir-birinə qoşulub cəbhəyə də getmişdilər. Osman idi, uşaqlıq dostu.. Sonra Osmanın ana-atası nə yollasa gəlib çıxarıb apardılar oğullarını müharibədən, o isə atəşkəsə kimi döyüşmüşdü, elə atəşkəsə bircə həftə qalmış yaralanmış, aylarla qospitallarda sürünmüşdü, qayıdıb kəndə gələndə Osmangil yox idilər, evli-eşikli köçüb getmişdilər kənddən, əlaqələri kəsilmişdi.

***Neçə illik dostunu görəndə sevindi, ürəkləndi, təəccüblənmək isə ağlına da gəlmədi. Osman bir az kobudluqla, bir az ərklə qolundan yapışıb divana dartdı onu:***

***-Gəl, gəl əyləş, necədir, xoşuna gəlir?***

***Oturdular, Rafiq gördü ki, tək deyillərmiş, dairəvi divanın bir tərəfində onlarla yaş üçüncü bir kişi oturub, sual dolu acıqlı nəzərlərini Osmana zilləyib. Rafiqin salamına əhəmiyyət də vermədi. Osman əlini həmin adama uzatdı:***

***-Bax Rafiq, bu da həmin adam, pulun sahibi.. Adam boş və soyuq nəzərlərlə Rafiqi başdan-ayağa süzdü:***

***-Gətirdin pulu?***

Bu adamın səsinin tonu uşaqlıq dostunun sevinci ilə heç uyuşmurdu. Dişini dişinə sıxdı, əlindəki çantanı divanın qarşısındakı kiçik jurnal masasının üstünə qoydu, içindəkiləri boşaltdı, şax pullar hamar şüşənin üstünə Rafiqin süfrəsinin üstünə tökülərkən çıxartdığı səsdən fərqli səslə yayıldı...

-Saya bilərsiniz, hamısı buradadır.

Adam üzünü yana çevirdi:

-Gərək deyil, düz olar...

Osman Rafiqin pərtliyini sezdi, yanında əyləşib əlini çiyninə qoydu:

-Sən ona bənd olma, uduzub, mən indi özüm sayaram.

Sonra yenidən kişiyə sarı çevrildi:

-Unutma, şərtimiz belə idi, manatbamanat düz olmalıdır... Rafiq bir şey anlamırdı, qulaqlarında qıribə bir küyültü gəlib-gedirdi. Osman səbrlə pulları sayıb dəstələməyə başladı. Sonuncu əskinası pul topasının üstünə qoyar-qoymaz adama baxıb göz vurdu:

-Düpbədüz! Nə demişdim sənə? Davay, səni də gorək..

Adam boz nəzərlərini bir anlıq Rafiqin üzündə saxladı, baxışları ilan kimi adamın gözünün içini çalırdı. Osman susmaq bilmirdi:

-Akif müəllim, şərtimiz belə idi, mən dedim axı sizə?!

Rafiq indi pulların sahibinin qarşısındakı adam olduğunu anlamışdı. Amma elə onunla telefonda danışan adam Osman imiş, çünki bu Akif müəllim nəinki gülən, hec sifətinin daş ifadəsini dəyişməyi bacaran adama oxşamırdı.

Akif müəllim əlini pencəyinin qoltuq cibinə apardı, oradan balaca, uzunsov kitabça çıxardı, bir vərəq ayırıb nəsə yazdı, cırıb Osmana uzatdı. Osman vərəqi alıb baxdı, qəribə bir uşaq şıltaqlığıyla öpüb gözünün üstünə qoydu, qarşısındakına acıq verirmişcəsinə:

-Allah bərəkət versin-dedi.

Rafiqin qulaqlarındakı küy get-gedə güclənir, ürəyinin döyüntüsü get-gedə çoxalırdı. Nəsə olurdu bu an, nəsə onunla əlaqəli bir şey, amma o heç nə anlamırdı.

Osman qalxıb bara getdi, qədəhlərə qırmızı şərab süzdü. Birini Akif müəllimə, birini Rafiqə uzatdı. Bir yandan da üyüdüb tökürdü:

-Qardaşağa, oturmuşduq bu müəllimlə, sohbət dolandı gəldi halallığa. Akif müəllim dedi ki, indi halal adam yoxdur, mən dedim var, o dedi yoxdur, mən dedim var! Atamın qəbri haqqi, sənə arxayın olub deyirdim. Sona söhbət böyüdü, gördüm inandıra bilməyəcəm, səni axtarmağa başladım, kəndə soraşıq elədim, dedilər şəhərdəsən, xülasə tapdırdım səni, indi adam tapmağa nə var? Və buyurun Akif müəllim-bunu deyədeyə ona sarı döndü- halal adam qarşınızdadır!

Rafiq bir an rahatlıq tapdı sanki. Uşaqlıq dostu onunla fəxr edirdi, bu sınaqdan üzü ağ çıxmışdı...

Osman masanın üstündəki pulları yenidən çantaya doldurdu, Rafiqin qarşısına qoydu:

-Bunlar da sənindir qardaş, halal-halal xoşun olsun!

Rafiq qətiyyətlə çantanı dala itələdi:

-Mən qaytarmağa gətirmişəm, saxlayasıydım daha niyə qaytarırdım ki?

Osman şaqqanaq çəkdi:

-A kişi götür pulunu, Akif müəllimə bir şey olmaz, şərtimiz belə olub ki, mən udsam o pul sənə çatacaq. Sən bu kişinin pətliyinə bənd olma, o uduzduğu yüz minin dərdindədir-belə dedi və kişinin nəsə yazıb ona verdiyi kağızı Rafiqin qarşısında tutdu:

-Bax, burada yazılıb-yuz min! Bank çekidir. Yuz mindən mərc gəlmişdik. Əgər sən bu pulu qaytarmasaydın indi mən uduzmuşdum, o da sevinirdi.

Əlindəki şərabdan bir qurtum aldı:

-Amma mən bilirəm nədən mərc gələrlər, Akif müəllim!

Rafiq ayağa durdu, ürəyi elə gupbuldayırdı ki, səsini eşidirdi. Səndələdi. Osman onunla bir qalxdı:

-Gedirsən? Yaxşı, uşaqlara deyim səni aparsınlar.

Çantanı əlinə aldı, Rafiqə uzatdı. Özünü sonacan tox tutmağa, içindən keçənləri biruzə verməməyə çalışırdı. Çantanı alıb ikrahla jurnal masasının üstünə qoydu. Astadan pıçıldadı:

-Cəhənnəm olun! Cəhənnəm olun!

***Gözü masanın üstünə qoyulmuş meyvə vazındakı bıçağa sataşdı. Nə Osman, nə də Akif müəllim bunu gözləmirdilər, dostu onun qolundan sıxıb bayaqkı sevincinə yad ifadəylə gözünü-gözünə zillədi, Rafiq dəhşətə gəldi, özgə, düşmən baxışlar idi:***

***-Ağıllı ol! Tanrına təpik atma!***

***Hiss elədi ki, bir dəqiqə keçsə dəli ola, ürəyi partlaya bilər bu evdə. Heç zaman ölümə bu qədər yaxın olmamışdı. Kirayə mənzilin nəm divarlarını, kənddəki alayarımçıq evini, uşaqlarını, arvadını düşündü..***

***Qolunu Osmanın məngənə barmaqlarından çıxardı. Qapıya yönəldi, həyətdə onu gözləyən sürücüyə gəlməməsi üçün işarə verib çıxışa sarı yönəldi. Avtomatik qapılar qarşısında açılıb arxasıyca bağlandı...***

***...Ətrafdakı nəhəng villaların kölgəsi axşamın alaqaranlığına qarışmışdı, İki küçə gedəndən sonra ayaqları əsdi, taqətsiz bir halda hündür hasarın dibində yerə çökdü, için-için, uşaq kimi ağlamağa başladı...***